**UOT 7(091); 7.03**
**https://doi.org/10.59849/2218-4783.2025.2.278**

**FATMA ŞAHBAZOVA**

# HÜSEYNQULU ƏLİYEVİN SƏHNƏQRAFİYA SAHƏSİNDƏ FƏALİYYƏTİ

*Çoxşaxəli yaradıcılığı ilə Azərbaycan təsviri sənətində özünəməxsus yeri olan Xalq rəssamı, professor Hüseynqulu Əliyevin yaradıcılığında səhnəqrafiyanın – teatr-dekorasiya sənətinin yer almasını da təbii saymaq olar. Belə ki, zamanında Bakıda orta və ali rəssamlıq təhsili alandan sonra doğma Naxçıvana dönən gənc rəssamın təsviri sənətin bütün sahələrində uğurlu əsərlər yaradacağına inam böyük idi.*

*Hüseynqulu Əliyev bu sahədə fəaliyyətə başlamazdan əvvəl, onun bu teatrın fəaliyyəti, orada baş tutan tərtibat işləri barəsində məlumatı vardı. Odur ki, səhnəqrafiya və ona verilən estetik tələblər barəsində məlum olanları yaradıcı dərk etməklə, ərsəyə gətirəcəyi dekorasiya və geyim eskizlərində tamaşanın ruhu ilə səsləşəcək tərtibatlar yaratmaq istəyində idi.*

**Açar sözlər:** *"Ürəkaçanlar", teatr, səhnəqrafiya, Hüseynqulu Əliyev, Naxçıvan Musiqili Dram Teatrı.*

**Giriş.** Məlumat üçün bildirək ki, rəngkarlığın bu sahəsində teatrda səhnələşdirilən ədəbi əsər ideya daşıyıcılığı, mənəvi-psixoloji yaşantı, estetik tutumu, forma müxtəlifliyi rənglərin dili ilə kompozisiya mütənasibliyinin, miqyas seçiminin, və texniki vasitələrin köməyi ilə ortaya qoyulur. Səhnələşdirilən hər bir dram əsərinə teatr rəssamı tərəfindən bədii tərtibat-dekorasiya və geyim eskizləri hazırlanır. Əsərin süjeti, ideyası, dil üslubu nəzərə alaraq yaradılan tərtibatda teatr rəssamı həm də öz üslub tərzini-bədii yanaşmasını göstərmiş olur.

Hüseynqulu Əliyevin yaradıcılığının bu sahəsi özünün ifadə vasitələrinin genişliyi, üslub müxtəlifliyi, ifadə "dilinin" sadə və yığcamlılığı ilə seçilir. Rəssamın səhnəqrafiya sahəsindəki yaradıcılığı bilavasitə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı ilə bağlı olmuşdur. Lakin onun teatr fəaliyyəti bundan əvvəlki dövrə – Mirzə Ağa Əliyev adına İncəsənət İnstitutunda tələbə olduğu illərə (1977-1982) təsadüf edir. Bu illərdə o, "Sevil" kinoteatrında baş rəssam kimi fəaliyyət göstərmişdir ki, bu da ona səhnəqrafiya sahəsində bir başlanğıc, bir sınaq olmuşdur [1, s. 55].

Hüseynqulu Əliyev rəssamlıq təhsilini başa vurub Naxçıvana qayıtdıqdan bir müddət sonra, 1989-cu ildən başlayaraq Naxçıvan Dövlət Musiqili Dram Teatrında baş rəssam vəzifəsində fəaliyyət göstərmişdir. Bu teatrda tamaşaya qoyulan çoxsaylı səhnə əsərlərinə verdiyi bədii tərtibatlar xalqın milli ruhunu əks etdirilməsi, əsərdəki qəhrəmanı estetik cəhətdən doğru səciyyələndirilməsi ilə, tarixi dövr haqqında düzgün təsəvvür yaratmaq qabiliyyətini ortaya qoyurdu. Onun tərtibat verdiyi tamaşalar bədii tutumuna, ifadəliliyinə, konkret və anlaşılan ideyasına, emosionallığına görə seçilirdi.

Gənc rəssamın teatr-sənəti sahəsindəki ilk işi 1990-cı ildə "Özümüz bilərik" tamaşasına hazırladığı bədii tərtibat olmuşdur. Bundan sonrakı əsər isə 1991-ci ildə səhnəyə qoyulan Məmməd Səid Ordubadinin "Ürəkaçanlar" əsərinə verdiyi bədii tərtibat olmuşdur. Tərtibatçı rəssamın fəaliyyəti sənətşünas H.Allahverdiyeva tərəfindən belə dəyərləndirilmişdir: "Bildiyimiz kimi, teatrın uğurlu alınan tamaşası elə mükəmməl səhnə tərtibatından başlayır. H.Əliyev tərtibat verdiyi tamaşalarda tək bir detal, sadə forma və rənglərin dili ilə əsərin ideyasını yığcam və mənalı şəkildə tamaşaçıya çatdırmışdır. Bunu da öz növbəsində onun istedadının dünyagörüşünün, təcrübəsinin, zövqünün, sənətə olan sevgisinin nəticəsi kimi qiymətləndirmək olar" [3, s.182-186].

Teatrın baş rəssamı Hüseynqulu Əliyev 1990-cı ildə Şıxəli Qurbanovun "Özümüz bilərik", 1991-ci ildə M.S.Ordubadinin "Ürəkaçanlar", İslam Səfərlinin "Xeyir və Şər" əsərlərinin səhnə tərtibatını vermişdir. Bu tərtibatlarda rəssamın özünəməxsus iş texnikası, rəng koloriti diqqətə çarpır

[5, s. 108]. Bundan əlavə onun işlədiyi tərtibatlar sırasında 1993-cü ildə "Məşədi İbad", "Arvadımın əri", "O olmasın, bu olsun" əsərlərinin adını çəkmək olar.

O, 1997-ci ildə "50 yaşında cavan", 1999-cu ildə "Kələkbaz qızlar", 1999-cu ildə "Dörd əkiz qardaş", 2001-ci ildə "Mənim ərim dəlidir", 2003-cü ildə "Mərhəmət məhəbbət deyil", 2005-ci ildə "Afət", 2006-cı ildə "Arşın mal alan" tamaşalarının bədii tərtibatını vermişdir. Rəssam 2007-ci ildə "Səyavuş", 2008-ci ildə isə Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" əsərlərinin bədii tərtibatını yüksək səviyyədə hazırlamışdır. Son əsər Ümummilli lider Heydər Əliyevin 85 illiyi münasibəti ilə əlaqədar olaraq tamaşaya qoyulmuşdur. 2012-ci ildə "Şeyx Sənan", 2014-cü ildə "Ağa Məhəmməd şah Qacar", 2015-ci ildə "Nadanlıq və ya qəfil telefon zəngi", 2018-ci ildə səhnəyə qoyulan "Xəyyam" tamaşalarına bədii tərtibat vermişdir [2, s. 117-119].

Müstəqillik dövründə Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulan tamaşaların bədii tərtibatı Naxçıvan MR Əməkdar rəssamı Səyyad Bayramovun, Naxçıvan MR Əməkdar rəssamı Əbülfəz Axundovla yanaşı Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyevin adı ilə bağlıdır.

Hüseynqulu Əliyevin növbəti ildə səhnəqrafiya sahəsindəki yaradıcılıq nümunəsi təkcə tamaşaların səhnə tərtibatı olmamışdır. Elə tamaşalar var ki, onun quruluşçu rəssamı özü olmasa da, tamaşanın geyim tərtibatını hazırlamışdır. Belə tamaşalardan "Fərhad və Şirin", "Səyavuş" tamaşasını nümunə göstərmək olar. Bu tamaşaların geyim tərtibatında dövrə, məkana uyğunluq, mövcud dövrdəki sosial kateqoriyalara xas xüsusiyyətlər nəzərə alınmışdır.

Bununla yanaşı o, ad çəkilən tamaşaların quruluşçu rəssam olan Əbülfəz Axundovun səhnə tərtibatında istifadə etdiyi təsvir vasitələrini – rəng, forma, perspektiv, işıq-kölgə məsələlərinə nəzərə alaraq ona uyğun şəkildə eskizlər hazırlamışdır. Səməd Vurğunun 100 illiyi münasibətilə 2006-cı ildə Kamran Quliyevin rejissorluğu ilə səhnəyə qoyulan "Fərhad və Şirin" tamaşasında Fərhadın, Şapurun, Şirinin, vəzirin, Şiriyənin, Azər babanın geyimlərindəki yaş, xarakter xüsusiyyətləri də forma və rəng həllindəki uğuru göstərir.

Tamaşanın geyim eskizlərini hazırlayan Hüseynqulu Əliyev olsa da quruluşçu rəssamı Əbülfəz Axundov idi. Teatrın baş rəssamı Hüseynqulu Əliyevin hazırladığı geyim eskizləri hadisənin vaqe olduğu yer və mühit haqqında aydın təsəvvürün formalaşması baxımından uğurlu idi. Geyimlər həm də dövrə, əsərdə təsvir olunmuş obrazların xarakterlərinə xas olaraq hazırlanmışdır. Geyimlərin rəng seçimi də obrazlara uyğunlaşdırılmışdır. Geyimdəki rəng uyğunluğu və salarların bir-birini tamamlaması diqqəti cəlb edirdi. Tamaşada hər iki rəssamın yaradıcı əməyi H.Cavidin əsərdə göstərmək istədiyi fəlsəfi ideyasını aydın boyalarla əks olunması üçün böyük əhəmiyyət qazanmışdır. 2007 ilin 24 oktyabrında səhnə təcəssümü tapan "Səyavuş" əsəri görkəmli dramaturq Hüseyn Cavid yaradıcılığının yaşadılması, öyrənilməsi və təbliğinə xidmət edən tamaşa idi.

2008-ci ildə isə səhnəyə qoyulan Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı" əsərlərinin bədii tərtibatını da mükəmməl səhnə tərtibatı ilə fərqlənən H.Əliyev hazırlamışdır. Tamaşa Ümummilli lider Heydər Əliyevin 85 illik yubileyi ilə əlaqədar olaraq səhnəyə qoyulmuş və Naxçıvan Musiqili Dram Teatrında səhnəyə qoyulan tamaşalar içərisində tamaşaçılar tərəfindən sevilən çox uğurlu və yaddaqalan tamaşalardandır.

Tamaşanın yaddaqalan olmasının bir səbəbi də onun bədii tərtibatıdır. Tamaşanın bədii tərtibatı tamaşaçı ruhuna, hisslərinə, qavrayışına daha çox təsir edən ilk və böyük amildir. "Koroğlunun Çənlibelə qayıdışı" tamaşasının bədii tərtibat bir də onun konkret ideyaya malik mürəkkəb kompozisiyası, bu ideyaya uyğunlaşdırılmış işıq effektləri, istifadə olunmuş rəng koloriti bir-biri ilə vəhdət daşıyır. Rəssam səhnə əsərinin bədii tərtibatında tamaşanın ideyasına uyğun olaraq daha çox qırmızı, qara, ağ və qızılı rənglərdən yerli-yerində istifadə edərək tamaşanın bədii həllinə nail olmuşdur.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyeva bu tərtibatın ideya-fəlsəfi xüsusiyyətini, bədii tutumu haqqında bu fikirləri qeyd etmişdir: "Bu əsərdə göstərilən imperiya zəncirlərindən xilas olmuş Azərbaycanın o dövrdə düşdüyü çətin vəziyyətdə onun dadına çatan, qədim qəh-

rəmanlıq dastanımızın məğlubedilməz, xalqı üçün igidlik göstərən Koroğlunun simasında göstərilən Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyevin Azərbaycana gəlməsi və bununla da ölkəmizin zaman-zaman qədəm qoyduğu inkişaf yolunu göstərən süjet xəttinin əksi, səhnə tərtibatında rəssamın fırçasının gücü ilə rənglərlə işıq effektləri və səhnədə istifadə edilən başqa ifadə vasitələri ilə mükəmməl bir şəkildə verilmişdi. Buradakı qapıların ortasından keçən qırmızı zolaqlar kimi təsvir olunmuş yollar və qara rəngin fonunda asılmış qırmızı tank təsvirləri, ucalığı, yüksəlişi, Azərbaycanın inkişafını simvolizə edən pillələrdə verilmiş, yuxarı hissəsində Kremlin ulduzu göstərilən qırmızı stullar hakimiyyətdə olan Rusiyanın müstəmləkəçi siyasətinə, işğalçı mövqeyinə işarədir. Pillələrin aşağıdan yuxarıya doğru yüksələn istiqamətində, iki yerdə göstərilən qırmızı stullar o dövrdə Rusiyanın Azərbaycanın azadlığına, inkişafına qarşı törətdiyi maneçiliyi ifadə edir. Yer kürəsinin üzərində təsvir olunan Azərbaycan xəritəsində, həmin dövrdə cərəyan edən hadisələrin hansı bölgədə baş verdiyini də tamaşa müddətində kürənin üzərindəki işıqları yandırmaqla göstərilirdi. Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi bu tamaşada pillələrin ən üst tərəfində, uca zirvədə dayanması və fonun işıqlandırılması ilə Azərbaycanın gələcəyinin də belə işıq şüasının perspektivi kimi nurlu və sonsuz olacağını ifadə edir və bunu aydın şəkildə tamaşaçılara çatdırır” [4, s. 122].

Müasir dövr Naxçıvan teatrının səhnəqrafiyasında, o cümlədən H.Əliyevin səhnəqrafiya sahəsindəki yaradıcılığında janr, üslub, forma axtarışları teatr rəssamlığının ümumi inkişafına təsir göstərirdi. Bununla bərabər teatr rəssamlığında realist prinsiplərin güclənməsi üslub və forma əlvanlığı üçün böyük meydan açırdı. İncəsənətdə – ədəbiyyatda, rəssamlıqda psixoloji realizm xətti güclənməsilə yaranan üslub müxtəlifliyi rəngkarlığın teatr-dekorasiya sahəsində də yeni forma və ifadə müxtəlifliyi sahəsində müasir dövrün tələblərinə cavab verəcək imkanlar axtarmağa sövq edirdi. Teatr rəssamlığı sahəsində olan bu müsbət dəyişikliyi H.Əliyevin yaradıcılığında bütünlüklə izləmək mümkündür.

Ümumiyyətlə, H.Əliyevin tamaşaların bədii tərtibatı işində öz yaradıcılığını real olaraq göstərməsi estetik mahiyyət kəsb etmişdir. Teatr rəssamı hər bir tamaşa tərtibatında estetik olaraq, həm dövrü, ədəbi prosesləri, həm də öz xarakterini, düşüncə və fantaziyasını, əsərə olan münasibətini ortaya qoymuşdur. Hüseynqulu Əliyevin səhnəqrafiya sahəsindəki yaradıcılığının əsas göstəricisinə çevrilən, onun fantaziyasından doğan forma xüsusiyyətləri, tamaşanın ideyası ilə uyğunluq təşkil edən rəng təmasının uğurlu həlli onun tərtibat verdiyi tamaşanın yüksək səviyyəli təqdimatı üçün əhəmiyyətli olmuşdur. Onun hazırladığı səhnə tərtibatında bitkin kompozisiya quruluşu, əsərin süjet xəttinə əsaslanan, ideya-bədii ruhuna uyğun rəng tembrlərinin ustalıqla müəyyən edilməsi, səhnədə aktyor ifasının, hərəkətinin əlverişliliyi, rahatlılığı, uyğunluluğu, dekorlarla “zadnikin” estetik tamlığı, onların səhnədəki yerinin düzgün tapılması, ümumilikdə məzmun və formasının yığcam bədii həlli səciyyəvi xüsusiyyətlərindən hesab olunur. Bu inkişaf teatr rəssamlığında da özünü göstərirdi ki, bu da yeni yaradıcılıq texnikalarının, yeni ifadə vasitələrinin yaranması və istifadəsi ilə xarakterizə olunmuşdur.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaların bədii tərtibatının müasir dövrün tələbləri yönündə yeni inkişafı təsviri sənətin müxtəlif janrlarında yaranan fərqli təsvir metod və vasitələri yaranması ilə, yəni, XX əsrin ikinci yarısının sonlarından etibarən özünü göstərməyə başladı. Ümumiyyətlə, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında əsası Bəhruz bəy Kəngərli tərəfindən qoyulan teatr rəssamlığında milli ənənələrini Hüseynqulu Əliyev öz yaradıcılığında davam etdirmişdir. Lakin O, təkcə milli ənənələrlə kifayətlənməmişdi [5, s. 7].

Xalq rəssamının teatr-dekorasiya boyakarlığı sahəsindəki yaradıcılığı repertuara salınmış əsərin üslubuna görə realist üslubla yanaşı, istifadə etdiyi digər üslub formalarından da istifadə etmişdir. Burada bədii tərtibat rəng koloriti, təsvir vasitələri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənmişdir. Sadə formalara müraciət etməklə məkanda bədii-konstruktiv mühit yaratmaq üslubu Hüseynqulu Əliyevə xas olan yaradıcılıq tərzidir ki, bu da onların ayrı-ayrı tərtibat işlərində nəzərə

çarpır. Naxçıvan Dövlət Musiqili Dram Teatrında rəssamlıq fəaliyyəti göstərmiş teatrın baş rəssamı, Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev öz üslub xüsusiyyətləri, rəng tembrləri, müraciət etdikləri ifadə vasitələri ilə bir-birindən maraqlı kompozisiya həllinə nail olmuşdur. O, teatrdakı fəaliyyətini 2019-cu ilədək davam etdirmişdir. Onun fəaliyyəti bugünkü gün davam etməsə də Azərbaycan teatr-dekorasiya sənəti sahəsində özünəməxsus bir imza qoymuş, bu sahədə böyük bir irs yaratmışdır. Xalq rəssamı, professor Hüseynqulu Əliyev rəngkarlıq, qrafika, heykəltəraşlıqla yanaşı, Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəqrafiyasına aid olan yaradıcılığında fərqli və özünəməxsus xüsusiyyətlərə malik olmuşdur. Hər zaman öz dəst-xəttinə sadiq qalan rəssamın tamaşalara verdiyi bədii tərtibat işi hər zaman ideya tamlığı, rəng çalarlarının zənginliyi ilə yadda qalmışdır. Onun təsviri sənətin digər sahələrdə də özünü göstərən “sərt üslub” texnikası rəssamın teatr-dekor sənəti sahəsindəki yaradıcılığı üçün də xarakterik olmuşdur.

Teatrın baş rəssamı səhnəqrafiya yaradıcılığında tamaşanın əsas ideyasını daha qabarıq verməklə, üslub xüsusiyyətlərinin zənginliyi, tərtibatın obraz-atribut kimi təqdimatı kimi nüanslara üstünlük verməsi əsas göstəricidir. Onun hazırladığı bədii tərtibatlarda obrazlara məxsus əlbəsələrin bəhs olunan dövrə və yaşadığı mühitə xas formada verilməsi, obrazların xarakterlərinin əlbəsələrinin rəng uyğunluğu kimi xüsusiyyətlərinin nəzərə alınması Hüseynqulu Əliyev səhnəqrafiya sahəsindəki uğurunun bir amili idi

**Nəticə.** Xalq rəssamı Hüseynqulu Əliyevin bütövlükdə, yaradıcı fəaliyyətinə nəzər yetirib dəyərləndirdikdə, keçən əsrin 70-80-ci illərindən başlayaraq indiki dövrə qədər davam edən fəaliyyətin əsasında rəssamın milli dəyərlərə dərin ehtiramı, ənənəvi prinsiplərlə yanaşı, yeni bədii təmayüllərlə öz yaradıcılığının uğurunu şərtləndirdiyini deməliyik.

## ƏDƏBİYYAT

1. Allahverdiyeva H. Naxçıvan Dövlət Musiqili Dram Teatrı tamaşalarının bədii tərtibatı: Sənətşünaslıq üzrə fəlsəfə doktoru diss. avtoref. Bakı, 2018, 137 s.
2. Allahverdiyeva H. Naxçıvanda səhnəqrafiyanın inkişafında bədii tərtibat obraz – atribut kimi // Elmi Əsərlər, Naxçıvan, 2017, 2 c., № 5 (86), 120 s., s. 116-122,
3. Allahverdiyeva H. Naxçıvan Dram Teatrında (1991-2008-ci illərdə) tamaşaların bədii tərtibatı / Naxçıvan Dövlət Universiteti. Regional inkişaf və böyük mədəniyyət: mənşə, harmoniya və tipologiya məsələləri. Beynəlxalq Konfrans (25-26 oktyabr 2013). Naxçıvan, 2013, 108 s.
4. Allahverdiyeva H. Naxçıvanda səhnəqrafiyanın XX əsrin ikinci yarısından başlayan üslub müxtəlifliyi // Mədəniyyət dünyası, Bakı: ADMİU, 2017, № 33, s. 118-124.
5. Axundov B. Cavid obrazı milli təsviri və tətbiqi sənətimizdə. “525-ci qəzet”, 2010, 21 aprel, s. 7.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: fatma_sahbazova@hotmail.com***

**Fatma Shahbazova**

## HUSSEINGULU ALIYEV'S ACTIVITIES IN THE FIELD OF SCENOGRAPHY

It is natural that scenography – the art of theatrical decoration – makes up a significant part of the works of the People's Artist, Professor Husseingulu Aliyev, whose multifaceted creativity occupies a unique place in the fine arts of Azerbaijan. At one time, many were confident that the young artist, having returned to his native Nakhchivan after receiving secondary and higher art education in Baku, would create successful works in all areas of fine art. Before Husseingulu Aliyev began his activities in this field, he had information about the activities of this theater and the design work

carried out there. Therefore, he tried to make models that would capture the essence of the performance in the sketches of the scenery and costumes he was going to make, creatively realizing what was known about scenography and the aesthetic requirements imposed on it.

**Keywords:** *"Urekachanlar", theatre, scenography, Husseingulu Aliyev, Nakhchivan Musical and Drama Theatre.*

**Фатма Шахбазова**

## ДЕЯТЕЛЬНОСТЬ ГУСЕЙНГУЛУ АЛИЕВА В ОБЛАСТИ СЦЕНОГРАФИИ

Закономерно, что сценография – искусство театральной декорации – составляет значительную часть трудов народного художника, профессора Гусейнгулу Алиева, многогранное творчество которого занимает уникальное место в изобразительном искусстве Азербайджана. В свое время многие были уверены, что молодой художник, вернувшись в родной Нахчыван после получения среднего и высшего художественного образования в Баку, создаст успешные произведения во всех областях изобразительного искусства.

До того, как Гусейнгулу Алиев начал свою деятельность в этой сфере, он имел информацию о деятельности этого театра и ведущихся там проектных работах. Поэтому, творчески осознавая то, что было известно о сценографии и эстетических требованиях, предъявляемых к ней, он стремился создать макеты, которые перекликались бы с духом спектакля в эскизах декораций и костюмов, которые он собирался создать.

**Ключевые слова:** *Урекачанлар", театр, сценография, Гусейнгулу Алиев, Нахчыванский музыкально-драматический театр.*

*(Sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevil Sadıxova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 27.06.2025**
**Son variant 25.07.2025**